**Antiterror şəhidi**

# Nağıla dönən qəhrəman

**Vətən müharibəsində Böyük Qələbəmizi həzm edə bilməyən mənfur düşmən Qarabağdakı tör-töküntülərini silahlandıraraq tez-tez təxribatlar törədirdi. Ağdərə, Xocavənd, Xocalı rayonları və kəndlərində və Xankəndi şəhərində "dirəniş" göstərirdi. Pozuculuq əməllərindən cana doyan Silahlı Qüvvələrimiz, nəhayət, "terror" özbaşınalığının qarşısını birdəfəlik almağa qərar verdi.**

2023-cü il sentyabr ayının 19–20-də 23 saat davam edən uğurlu lokal antiterror əməliyyatının həyata keçirilməsində müzəffər ordumuz möhtəşəm uğura imza atdı. Amma bu, qurbansız da ötüşmədi. Dövlət suverenliyimizin tam bərpası uğrunda döyüşlərdə şəhidlər də verdik. Onlardan biri "Komando" kəşfiyyat bölüyünün cəsur əsgəri Məhəmməd Xəlilli oldu.

Məhəmməd 2004-cü ilin sentyabr ayının 17-də İsmayıllı rayonunun Basqal qəsəbəsində dünyaya göz açıb. Onun 6 yaşı olanda ailəsi Binəqədi rayonunun Biləcəri qəsəbəsinə köçüb. Yeniyetmə çağlarından cüdo ilə məşğul olub. İdman onun güclü, dözümlü, iradəli olmasında böyük rol oynaydb. 2022-ci ilin oktyabr ayında Binəqədi rayon hərbi komissarlığından əsgəri xidmətə çağrılıb və "komando" təlimlərinə qatılıb. Zirəkliyi sayəsində kəşfiyyat bölüyünə qəbul edilib.



Ailə üzvləri deyir ki, Məhəmmədin "komando"bölüyündə xidmət etməsindən xəbərləri olmayıb, bunu yalnız o, şəhid olduqdan sonra biliblər. Özü sirr saxlayırmış ki, narahat olmasınlar. Yalnız 2023-cü ilin avqust ayında 10 günlük məzuniyyətə gələndə deyibmiş ki, Qarabağ dünyanın cənnət məkanıdır, Hadrut çox gözəldir. Razı olmarıq ki, buralarda nankor düşmənlər gəzib kef eləsinlər.

Antiterror tədbirləri olduqca yüksək peşəkar səviyyədə təşkil edilib, əməliyyatlar mülki əhaliyə heç bir xətər dəymədən uğurla başa çatdırılıb. Düşmənin dərinliyinə sızan qüvvələrimiz Xocavəndi, Ağdərəni, Xocalını və Xankəndini düşməndən azad ediblər. Xocavənd rayonunun Qarakənd kəndi istiqamətində hücuma keçən bölmələrimizin tərkibində Məhəmməd Xəlilli də böyük fədakarlıq göstərərək düşmənin bir çox canlı qüvvəsini məhv edib. Sentyabrın 19-u saat 17–18 radələrində isə namərd düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub.

İşə baxın ki, atası İlqar müəllim dəfələrlə oğlunun şəhid olmasını röyalarda görübmüş. Hər dəfə yuxudan hövlnak oyanıb deyirmiş ki, İlahi, sən özün xeyirə cala! Bu, nə yuxulardır, görürəm? Məhəmməd əsgərliyə getməmişdən əvvəl ağır bel əməliyyatı keçirsə də, mütləq əsgər gedəcəyəm, – deyirdi. Vətən qarşısında müqəddəs şəhidlik andı içibmiş.

Bacısı Zeynəb xanımın sentyabrın 19-u ad günü olacaqdı. Amma ailə həmin günü göz yaşları içində keçirib. Zeynəb deyib ki, daha heç vaxt ad günü keçirməyəcəm, o gün artıq Məhəmmədin şəhadət günüdür.

Onu da deyək ki, Xəlilovlar ailəsi Məhəmmədin toyuna hazırlaşırdı. Onun bir könüldən-min könülə vurulduğu istəklisi də varmış. İgidi 23 yaşında evləndirəcəkmişlər. Amma o, 23 saat düşmənlə savaşda qəhrəmancasına şəhid oldu.

İndi hər gün atası, anası və bacısı Məhəmmədin şəkilləri ilə pıçıldaşır və istər-istəməz kövrəlirlər. Ancaq təsəlliləri budur ki, o, Azərbaycanın tam suverenliyinin bərpası uğrunda mübarəzədə canını qurban verib. Rəşadətli Silahlı Qüvvələrimizin hərbi qulluqçusu Məhəmməd Xəlilli 2023-cü il sentyabrın 20-də 2-ci Fəxri Xiyabanda torpağa tapşırılıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu Məhəmməd Xəlilli Prezident İlham Əliyevin sərəncamına əsasən, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.

Sentyabrın 20-də qəhrəmanımızın həlak olmasının 1-ci ildönümüdür. Cənnətdəki mövludun mübarək, qəhrəman!

***Rüfət HÜSEYNLİ***

Xalq qəzeti .- 2024.- 19 sentyabr, (№ 204). - S.5.